AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN DİLLƏR UNİVERSİTETİ

Əlyazması hüququnda

SƏİDƏ BƏHLUL QIZI DADAŞOVA

# KLASSİSİZM VƏ REALİZM: MOLYER VƏ M.F.AXUNDOV YARADICILIĞINDA FƏRDİ ÜSLUBLARIN MÜQAYİSƏSİ

5718.01 – Dünya ədəbiyyatı (fransız ədəbiyyatı)
5716.01 – Azərbaycan ədəbiyyatı

Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

AVTOREFERATI

Bakı – 2016

İş Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

Elmi rəhbər: filologiya üzrə elmlər doktoru, professor Qorxmaz Həsi oğlu Quliyev

Rəsmi opponentlər: filologiya üzrə elmlər doktoru, professor Əsgər Məmməd oğlu Zeynalov

filologiya üzrə elmlər doktoru Yaqub Məhərrəm oğlu Babayev

Aparıcı təşkilat: AMEA Nizami adına Ədəbiyyat İnstitutunun Dünya ədəbiyyatı və komparativistika şöbəsi

Müdafiə ___27.05__ 2016-cı il saat ____ Azərbaycan Dillər Universiteti nəzdində elmlər doktoru və fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən D.02.081 Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

Ünvan: AZ 1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat ______________________________ 2016-cı ildə göndərilmişdir.

D.02.081 Dissertasiya Şurasının elmi katibi,
filologiya üzrə fəlsəfə doktoru, dosent Sevda Davud qızı Vahabova

## İŞİN ÜMUMİ SƏCIYYƏSİ

*Mövzunun aktuallığı.* Dissertasiya işində iki nəhəng fiqura – J.-B.Molyer və M.F.Axundova müraciət edilir. Bu sənətkarların müxtəlif dövrlərə, cəmiyyətlərə, mədəniyyətlərə, hətta ədəbi cərəyanlara aid olmalarına baxmayaraq, biz onların arasında mümkün olan "dialoqu" təyin etməyə çalışmışıq. Mədəniyyətlərarası dialoq yalnız qloballaşma prosesləri ilə deyil, həm də ədəbiyyatşünaslıqda yaranmış yeni tezislə bağlıdır. Bu müxtəlif müəlliflərin, yazıçı-klassiklərin sonrakı dövrlərlə təmasa girməsi, klassik məktəbin başqa ədəbi cərəyanlarla münasibətinin mümkünlüyü tezisidir.

J.-B.Molyer və M.F.Axundov yaradıcılığına müraciəti resepsiya kimi təyin etmək olar. Resepsiyanın dialoq kimi dəyərləndirilməsi V.Jirmunski, A.Veselovski kimi məşhur tədqiqatçıların əsərlərində verilmişdir. J.-B.Molyerlə M.F.Axundovun yaradıcılığı bir çox araşdırmalarda müqayisə olunaraq vaxtaşırı J.-B.Molyerin M.F.Axundova təsiri vurğulanırdı. Belə təsir – "şagirdlik termini V.Jirmunskinin traktovkasında tam başqa məna alır, yəni burada "təsir etmə" və "qavrama" mexanizminin bərabərliyi, onların qarşılıqlı təsiri və ayrılmazlığı qeyd olunur."[1]

J.-B.Molyer klassisizmin nümayəndəsi olsa da o, məlum olduğu kimi klassisizmin sərhədlərini aşaraq, əsl realist əsərlər yazmışdır. Klassisizmi müasir nöqteyi-nəzərdən təhlil edənlər onun "axarlığını", iki əsr boyunca ədəbiyyata təsir göstərməsini, klassik yazıçıların gələcək dövrlərlə "dialoqa" girməsi mümkünlüyünü vurğulayırlar. Bu baxımdan J.-B. Molyerlə M.F. Axundov yaradıcılığının müqayisəsi problemini yeni müstəvidə araşdırmışıq.

Beləliklə, dissertasiya mövzusunun aktuallığı ondadır ki, iki böyük yazıçı – J.-B.Molyer və M.F.Axundov yaradıcılığında fərdi üslubların müqayisəsi problemi müasir dövr baxımından, yəni dialoq, resepsiya nöqteyi-nəzərindən araşdırılır.

*Tədqiqatın obyekti.* Dissertasiyanın obyektini J.-B.Molyerin və M.F.Axundovun komediyaları, bu sənətkarların yaşadıqları müxtəlif dövrlərdə mövcud olan ədəbi proseslərlə bağlı fikirləri təşkil edir. Hər iki yazıçının yaradıcılıq metodlarını, əsərlərinin ideya məzmununu açıqlamaq

---

[1] Жирмунский В.М. Байрон и Пушкин и западные литературы. М.: Наука, 1978, с. 15.

məqsədilə Fransada və Azərbaycanda müxtəlif illərdə nəşr edilmiş əsərlərinə istinad edilmişdir.

*Tədqiqatın predmeti.* Dissertasiyanın predmeti kimi birincisi – J.-B.Molyer və M.F.Axundov yaradıcılığının müqayisəli təhlili nəticəsində onların oxşar və fərqli cəhətlərinin aşkarlanması və konseptual baxımdan ümumiləşdirilməsidir. İkincisi-iki fərqli ədəbi cərəyanlarda - klassisizm və realizmdə fərdi üslubların araşdırılması dissertasiyanın predmetini təşkil edir.

*Tədqiqatın məqsəd və vəzifələri.* Dissertasiyanın əsas məqsədi J.-B.Molyer və M.F.Axundov yaradıcılığında fərdi üslub xüsusiyyətlərini araşdırmaq və müqayisə etməkdir. Əsas məqsədə nail olmaq üçün aşağıdakı konkret vəzifələr qarşıya qoyulmuşdur:

- klassisizmin ümumi nəzəri problemlərini araşdırmaq;
- klassisizmin dramaturgiya konsepsiyasını tədqiq etmək;
- Molyerin estetik baxışları və onların klassisizmin üslub konsepsiyasının formalaşmasında yerini müəyyən etmək;
- J.-B.Molyer və M.F.Axundov yaradıcılığında fərdi üslub xüsusiyyətlərini müqayisə etmək;
- M.F.Axundovun yaradıcılıq xüsusiyyətlərini tədqiq etmək;
- fərdi üslub baxımından klassisizm və realizm metodlarını "dialoq" və resepsiya nöqteyi-nəzərindən təhlil etmək;
- M.F.Axundova Azərbaycan ədəbiyyatında fərdi üslub konsepsiyasının banisi kimi yanaşmaq

*Tədqiqatın metodoloji əsasları.* Dissertasiyada iki sənətkarın XVII əsr Fransa – J.-B.Molyer və XIX əsr Azərbaycan – M.F.Axundov yaradıcılıqları yaşadıqları dövr və mənsub olduqları milli bədii fikir nöqteyi nəzərindən təhlil edilir. Bu baxımdan ən səmərəli olan tarixi-müqayisəli metoddan istifadə olunmuşdur. Eyni zamanda dissertasiyada "dialoq", resepsiya və komparativist yanaşmaya da yer verilmişdir. Bu isə tarixi-müqayisəli məktəbə aid olan bir sıra tədqiqatçılar tərəfindən (V.Jirmunski, A.Veselovski, M.Baxtin) irəli sürülmüş ədəbiyyatda "qarşılıqlı təsir" tezisinə arxalanır.

*Tədqiqatın fərziyyəsi* ondan ibarətdir ki, dünya ədəbiyyatının müxtəlif dövrlərə, cəmiyyətlərə, mədəniyyətlərə hətta müxtəlif ədəbi metodlara məxsus olan sənətkarların yaradıcılıqları arasında uyğunluqlar aşkar olunur. Bu isə ona dəlalət edir ki, dünya mədəniyyəti vahid bir məfhum olaraq "dialoq", "qarşılıqlı təsir" və s. aspektlərə arxalanır.

*Müdafiyəyə aşağıdakı müddəalar təqdim edilir:*

- yaradıcılıq metodunun, onun ümumi mahiyyətini müəyyən edən konkret cəhətlərin təyin edilməsi;
- yaradıcılıq üslubu ilə ifadə tərzini biri-birindən fərqləndirən cəhətlərin, yaradıcılıqda fərdiyyət məsələsinin araşdırılması;
- fransız klassisizminin və Azərbaycan realizminin nümayəndələri J.-B.Molyer və M.F.Axundov yaradıcılıqlarının müqayisəli təhlili nəticəsində onların fərdi üslublarında fərqin aşkarlanması;
- ümumi və vahid dünya ədəbi prosesində milli ədəbi inkişafın köklü problemlərinin öyrənilməsi.

*Tədqiqatın elmi yeniliyi.* Ədəbiyyatda J.-B.Molyer yaradıcılığının M.F.Axundov yaradıcılığına təsiri barədə müxtəlif mülahizələr irəli sürülmüşdür. M.F.Axundovun bütün komediyalarını orijinaldan fransız dilinə tərcümə edən L.Bazen hesab edir ki, M.F.Axundov əsərlərini J.-B.Molyerin əsərlərinin təsiri ilə yazmışdır. Düzdür, M.F.Axundovu üç fransa yazıçısı – Molyer, Bualo və Rasin xüsusən maraqlandırırdı. Ancaq fransız şərqşünas-türkoloqun bu fikri ilə razılaşmaq mümkün deyil, ən azı ona görə ki, M.F.Axundov bu yazıçıları təqlid etmək, onların təsiri altına düşmək iqtidarında deyildi. M.F.Axundov tam orijinal və müstəqil düşüncəyə malik böyük sənətkardır. Oxşarlığa, yəni bəzi obrazlar, motiv və süjetlərin səsləşməsinə gəldikdə isə müasir ədəbiyyatşünaslıqda ənənəvi strukturların bir sıra təyinləri vardır – “əbədi tiplər”, “səyyar süjetlər”, “dünyəvi süjetlər” və s.

T.Benfeyin “miqrasiya” məktəbinə məxsus fikirləri vardır. O, millətlərarası uyğunluqları məhz süjetlərin bir xalqdan digər xalqa keçməsilə izah edir. Rus alimi A.Veselovski T.Benfeyin “miqrasiya” məktəbinə məxsus fikirlərə qarşı çıxır. A.Veselovski “süjetin özündəndoğulma” nəzəriyyəsinə yaxınlaşaraq cəmiyyətin müxtəlif dövrlərində süjetlərin aktuallaşması problemini ortaya qoyur. “Həm motivlər, həm süjetlər tarixin dövriyyəsinə daxil olurlar”... “Süjetin resepsiyası heç vaxt təsadüfi olmur. O, həmişə “qarşılıqlı cərəyanlarla”, qəbul edən mühitin hazırlığı ilə izah olunur. Burada süjetlər “yeni mühitə qoşularaq, onun adət-ənənələrinə uyğunlaşır”. [2]

J.-B.Molyer və M.F.Axundov məşhur komediya yazardılar. Komediya janrının özünü bir mətn kimi götürsək, onun daxili quruluşunda, gerçəkliklə bağlanan məqamlarda ümumi-fəlsəfi, yaxud janr estetikası

---

[2] Веселовский. А. Н. Историческая поэтика. М.: Высшая школа, 1940, с. 305.

fərqli modullarla əyanıləşir. J.-B.Molyer, M.F.Axundov, yaxud her hansı bir komediya ustası yazıb-yaratdığı əsrdən asılı olmayaraq komediyanın "janr sferalarında" qarşılaşırlar, yaxud fərqlənirlər. Hər iki yazıçının yaradıcılığında fərdi cəhətlərin mövcudluğunu nəzərə alaraq J.-B.Molyerin və M.F.Axundovun fərdi üslublarının müqayisəsi məqsədəuyğundur. Dissertasiyanın elmi yeniliyi ondadır ki, indiyədək J.-B.Molyer və M.F.Axundovun fərdi üslub problemi müqayisəli aspektdə sistemli şəkildə tədqiqat predmeti olmamışdır.

*Tədqiqatın nəzəri əhəmiyyəti.* Müasir ədəbi prosesdə mədəniyyətlərarası əlaqələr həmişə gündəmdədir. Bu baxımdan dissertasiyada araşdırılan fransız və Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələri – J.-B.Molyer və M.F.Axundovun müqayisəli təhlili müasir ədəbi diskursla məşğul olan tədqiqatçılar üçün əlverişli material ola bilər.

*Tədqiqatın praktiki əhəmiyyəti.* Tədqiqat işinin materialları ali məktəblərin filologiya fakültələrində "Dünya ədəbiyyatı", "Azərbaycan ədəbiyyatı" fənlərinin tədrisində istifadə oluna bilər. Həmçinin dissertasiya Azərbaycan və Fransa mədəni əlaqələri üçün müəyyən dərəcədə əhəmiyyət kəsb edə bilər.

*Dissertasiya işinin aprobasiyası.* Dissertasiya işinin mövzusu Azərbaycan Dillər Universitetinin Xarici ölkələr ədəbiyyatı kafedrasında və Universitetin Elmi Şurasında təsdiq olunmuşdur. Tədqiqatın əsas nəticələri elmi nəşrlərdə, elmi konfransların materiallarında öz əksini tapmışdır.

*Dissertasiyanın quruluşu.* Tədqiqat işi giriş, iki fəsil, nəticə və istifadə olunmuş ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Girişdə mövzunun aktuallığı, tədqiqatın obyekti, predmeti, məqsəd və vəzifələri, metodoloji əsasları, tədqiqatın fərziyyəsi, nəzəri və praktiki əhəmiyyəti göstərilir, müdafiəyə təqdim olunan müddəalar, tədqiqatın strukturu, aprobasiyası şərh edilir.

Dissertasiyanın I fəsli "Fransız klassisizmində üslub problemi və J.-B.Molyer"adlanır. Bu fəsil iki yarımfəsildən ibarətdir. I yarımfəsildə "Klassisizm nəzəriyyəsində dramaturgiya konsepsiyası" şərh edilir.

Konkret tarixi şəraitin məhsulu kimi fransız klassisizminin təşəkkül tapması və çiçəklənməsi mütləqiyyət üsuli – idarəsinin möhkəmləndiyi bir dövrə təsadüf edir. XVII əsrin ikinci yarısında bu cərəyan mükəmməl ədəbi sistem kimi formalaşmış, nəzəri əsasları tam şəkildə yaradılmışdır. "Bir çox

yaradıcı insanların əsərlərində özünü təsdiq edən klassisizm cərəyanı Kornelin, Rasinin, Miltonun, Volterin faciələri, Molyerin komediyaları, Malerbin, Lafontenin poeziyası bəşəriyyətin bədii inkişafında öz müsbət təsirini göstərdi".[3]

Fransada klassisizmin geniş intişar tapmasının bir neçə səbəbi var. Birinci səbəb XVII əsrdə Fransada klassisizmin dövlət tərəfindən rəsmi surətdə təsdiq edilməsi və qəbul olunmuş ədəbi metod olmasıdır. Fransada klassisizmin inkişafını şərtləndirən ikinci səbəb onun Dekart fəlsəfəsində öz fəlsəfi əsasını tapması ilə bağlıdır. Dekartın işləyib-hazırladığı fəlsəfi məsələlər arasında idrak metodu mühüm əhəmiyyət daşıyırdı. F.Bekon kimi Dekart da biliyin son məqsədini insanın təbiət qüvvələri üzərində hökmranlığında, bu və digər hadisələrin dərk edilməsində, insan təbiətinin özünün təkmilləşdirilməsində görürdü. Dekartın fəlsəfi mülahizələrinin çıxış nöqtəsi bütün bilik sahələrini əhatə edən ümumi biliyin həqiqiliyini düşünməkdir. Düşüncə idrakın mövcudluğunu təsdiqləyən vasitədir, düşünürəmsə, deməк mən mövcudam, yəni : Je pense, donc je suis.

Dekart fəlsəfədə rasionalizm cərəyanının əsasını qoymuşdur. Burada ağıl, şüur yeganə həqiqi mənbədir. Dekart fəlsəfədə ağıl və zəkanın üstünlüyünü irəli sürür , bütün hadisələrin izahında insan zəkasına əsaslanmağı tələb edirdi. Dekart hesab edirdi ku, varlığı lazımı dərəcədə dərk etmək üçün hər şeydən əvvəl, insanın düşüncəsini və təfəkkürünü formalaşdırmaq, onu məntiqi əsaslar üzərində qurmaq lazımdır.

Fransız klassisizmi Kornel, Rasin, Molyer kimi nəhəng dramaturqları yetişdirdi, klassisizm bədii nəsrdə də parlaq şəkildə özünü təsdiq etdi. Kornelin, Rasinin, Molyerin yaradıcılığında obrazın dar çərçivədə verilməsi, onun birtərəfliyi, qərəzliliyi doğru idi, çünki klassisizmin estetik normaları onların yaradıcılığına bu cür hədd, sərhəd qoyurdu.

Klassisizm cərəyanının təməli gözəlliyin mütləq idealı əbədilik haqqında nəzəriyyə ilə qoyulmuşdur. XIX əsrdə Stendal klassisizm cərəyanının əsassızlığını və həyat həqiqətlərinə sadiq olmadığını sübut etməyə çalışaraq, gözəlliyin əbədi olmasını deyil, nisbi, dəyişən, tarixi olduğunu sübut etdi. Bu nəzəriyyə əbədi janrlardan (epopeya, faciə, komediya və s.) istifadə etməyi, hər janr üçün onun xüsusiyyətinə görə dəqiq sərhəd qoymağı, hər janra münasib olan dil yaratmağı tələb edirdi.

---

[3] Литературные манифесты западно-европейских классицистов / Под ред. Козловой Н.П. М.: Издательство Московского университета, 1980, с. 102.

Klassisizm estetikasının mühüm ünsürü ağıl, şüur haqqında nəzəriyyədir. Klassisizmin digər elementlərindən biri də incəsənətin tərbiyyəvi roludur. Klassisistlər bədii əsərdə qüsurlu, nöqsanlı insanları lazımınca ifşa etmək, yaxşı, xeyirxah insanları mükafatlandırmağı arzulayırdılar.

Estetik fikir tarixində XVII əsr klassisizmi çox hallarda birtərəfli şərh edilir. Bəzi tədqiqatçılar uzun müddət bu cərəyanı yalnız "normativ bir cərəyan hesab edərək, onu bəzən "yalançı klassisizm" adlandırmış, yaradıcılıq işinə mane olan bir axın saymışlar. Bu cərəyana klassisizm adı XVIII əsrin axırları, XIX əsrin əvvəllərində romantizm cərəyanının nümayəndələri tərəfindən verilmişdir. Romantiklər belə hesab edirdilər ki, klassisizm cərəyanı bütünlükdə azad poetik yaradıcılıq yollarını bağlamış, sənətin həyatla əlaqəsini məhdudlaşdırmış, ayrı-ayrı ədəbi janrları və formaları məhdud qəliblərə salmışdır.

Lakin, qeyd edək ki, Molyer yaradıcılığı bütövlükdə ictimai quruluşun nöqsanlarının açılmasına həsr olunmuşdur. Molyer ictimai quruluşun çatışmazlıqlarını gülüş vasitəsilə əks etdirirdi. Bu barədə fransız yazıçısı Patrik Dandreyin "Molyer və gülüşün estetikası" adlı kitabında yazılır: "Molyerin gülüşü "azadlıq carçısı" və "üsyançı bir gülüşdür". Onun əsərlərindəki gülüş ictimai qaydaları pozan faktordur".[4]

Belə bir ümumi mövqe Molyer komediyalarının ideya yeniliyini və ictimai dərinliyini təyin edirdi. Molyer xalq farsından onun məişət konkretliyini əxz etmişdi. Buna görə də bu komediyaların fakturası son dərəcə parlaq və mənalı kolorit kəsb edilirdi. Məlumdur ki, Molyer "commedia dell"arte" sənətinə dərindən maraq göstərirdi. Sürətlə inkişaf edən süjet, personajların kompozisiya sxemi, intriqa və paralel parodiyalar şəklində bir-birini əvəz edən lirik və komik səhnələrin verilməsi, kəskin və ritmik replikalarla müşayiət edilən dialoqun improvizasiya yüngüllüyü – bütün bu cəhətlər Molyer yaradıcılığına "commedia dell" arte"dan gəlmişdir.

Xarakter etibarilə Molyerin intellektual səciyyə daşıyan komediyaları rasionalist estetika prinsipi əsasında qurulmuşdu. Məlum olduğu kimi rasionalist metod həyatın əsas cəhətlərini dərin və şüurlu analizlə müəyyənləşdirirdi, komediyalara ideya aydınlığı aşılayırdı, kompozisiya baxımından bitkinliyi şərtləndirirdi. Bu da Molyer intellektuallığının mənfi cəhətlərinə səbəb olurdu, yəni qəhramanların

---

[4] Patrick Dandrey. Molière ou esthétique du riducule. Paris: Klincksieck, 1992, p. 99.

psixologiyasını zəiflədir və ümumən yaradıcılığın fəlsəfi diapazonunu məhdudlaşdırırdı. Klassisizm estetik nəzəriyyəsində daha çox poeziya, teatr və dramaturgiya əsas yer tuturdu. Ədəbi növ və janrlar içərisində məhz dramaturgiya ədəbi əsəri çərçivəyə salan, "oyun içində oyun" olması ilə şərtlənir. Qayda və prinsipləri maksimum dərəcədə məhdudlaşdırmaqla dramaturji diskurs digər nitq janrlarına keçidə şərait yaradır. Klassisizmin əsas aspekti kimi onun normativliyi götürülür. Lakin demək lazımdır ki, həmin dövrdə ən önəmli yer tutan klassisistlər də bu qaydalara bütün dəqiqliyi ilə əməl etmirdilər.

Klassisitlərin fikrincə, incəsənətin ən mühüm funksiyası cəmiyyətin kamilləşməsinə yardım etməkdir. Elə bu səbəbdən klassisistlər teatrdan istifadəyə böyük əhəmiyyət verirdilər.

Bu yarımfəslin yekunu olaraq qeyd etmək lazımdır ki, burada klassisizm estetikasının əsas cəhətləri geniş şəkildə bir sıra bədii əsər, araşdırmalar əsasında təhlil olunur. Belə ki, Fransua dö Malerbin yaradıcılığı və klassisizmin təməlini təşkil edən Nikola Bualonun "Poeziya sənəti" əsərindən verilən nümunələr bu üslubun bütün təfərruatlarını nəzərdən qaçırmamaq imkanı yaradır.

Birinci fəslin ikinci yarımfəsil "Molyerin estetik baxışları və onların klassisizm üslub konsepsiyasının formalaşmasında yeri" adlanır. Bu yarımfəsildə Molyerin həyat yolu, yaradıcılığı, bədii metodunun özünəməxsusluğu, klassisizmdə tutduğu mövqeyi, onun estetik baxışları təhlil olunur. "Molyer bu gün dünyanın hər yerində komik teatrla təxminən eyniləşdirilir... Molyer digər dramaturqlar – Kornel , Rasin kimi yazmırdı... Molyer həm müəllif, həm truppanın rəhbəri, həm rejissor, həm də komedioqraf idi... Molyerin əsərləri hərtərəfliyi ilə oxucunu cəlb edir, o qədim dövr teatr ənənələrinin bütün növlərindən qidalanaraq, onları yenidən yeni istinadlarda, yeni əfsanələrdə və teatr adamlarının xatirəsində canlandırırdı". [5]

Molyerin əsl adı Jan-Batis Poklendir. O, varlı burjua ailəsində anadan olmuşdur. Sonralar o, kolleci qurtarıb vəkil diplomu alsa da, yolunu teatra yönəltmişdi. O, artist ailəsi Bejarlarla birgə "İlustr Teatr" adlı teatr yaratdı və Molyer ləqəbini götürdü. Komedioqraf Molyerin ilk təcrübəsi bir pərdəli, dinamik süjetli fars idi. Molyer teatrının formalaşmasında italyan komediyalarının fars ənənələri, maskaları, gülməli obrazları səbəb olmuşdur.

---

[5] Molière. Le Tartuffe. Don Juan. Le Misanthrope. Paris : Edition de Georges Couton, 1883, p. 11.

Molyer ilk dəfə olaraq beş pərdəli “Yelbeyin” və “Dilxor aşiq” (“L’Étourdi”, “Le Dépit amoureux”) adlı komediyalarını yazır.

Molyerin truppası məşhurlaşandan sonra 1658-ci ildə Parisə qayıtdı. O, Luvrda, kral XIV Lyudovikin qarşısında öz truppası ilə tamaşa verir. Kral bu tamaşanı bəyəndiyi üçün onlara “La Troupe de Monsieur” (Cənablar truppası) adı verdi. Molyer 1659-cu ildə “Les Précieuses ridicules” (Gülünc ədabazlar) əsərini tamaşaçılara təqdim etdi. Bu əsər Molyerə böyük uğur qazandırdı. “Gülünc ədabazlar” əsərində Molyer ilk dəfə özünün aktyorluq istedadını açıq- aydın göstərdi. Bir az sonra o, burjua həyatını əks etdirən “L’ École des maris”(Ərlər məktəbi), “L’ École des femmes” (Arvadlar məktəbi) adlı məşhur komediyalarını yazdı. 1664-çü ildə Molyer saray bayramları üçün bir neçə əsər yazmışdı. O, “Tartuffe ou l’hypocrite” (Tartüf və ya fırıldaqçı) adlı yalançı möminləri ifşa edən yeni komediyasını təqdim etmişdi. Bu əsər kilsə xadimlərini narahat etdiyi üçün onun tamaşaya qoyulması qadağan edildi.

Molyer bu əsərin ikinci versiyasını “İmpositeur” (Fırıldaqçı) adlandırsa da, bu əsərin tamaşaya qoyulmasına beş ildən sonra, 1669-cu ildə nail oldu. Bu vaxt ərzində Molyer “Don Juan”, “Mizantrop”, “Zorən təbib”, “Amfitriyon”, “Jorj Dandən”, “Xəsis” və digər tamaşalarını yazdı.

Molyer bütün həyatı boyu düşmənləri ilə mübarizə aparmağa məcbur idi. Onun tənqidi realizmi həmişə söz-söhbətə səbəb olurdu. Yazıçıya olan təzyiqlər onun yaradıcılığının çiçəklənməsinə mane ola bilməsədə, sağlamlığına mənfi təsir göstərirdi. 1673-cü ildə Molyer özünün “Le malade imaginaire” (Xəyali xəstə) əsərinin baş rolunu ifa edərkən özünü pis hiss etmiş və bir neçə dəqiqə sonra teatr səhnəsində vəfat etmişdir. 1860-cı ildə Molyerin truppası və Burqon otelinin teatrı birləşərək yeni bir teatr yaratdılar. Teatra Molyerin ən bacarıqlı aktyorlarından biri Mişel Baron başçılıq etdi. Teatra “Maison de Molière” (Molyerin evi) adı verildi və bu ad bu günə qədər də saxlanır. Molyerin komediyaları bu məşhur teatrın repertuarında hər zaman şərəfli yer tutur.

“Molyer klassik dünya ədəbiyyatının, öz əsrinin və öz ölkəsinin sərhədlərini addımlayaraq milli fransız komediyasının yaradıcısıdır. Onun komediyaları, tamaşaları gülməyə çağırır, amma “gülmək xatirinə gülməyə yox”, bu gülüş böyük əxlaqi və sosial problemlərin həllidir”.[6] Müəllif öz

[6] Теория литературных стилей типология стилевого развития нового времени / Под ред. Гея Н.К., Мясникова А.С., Палиевского П.Б., Подгаецкой И.Ю. и др. М.: Наука, 1976, с. 235.

fikrində haqlıdır. Molyer teatrı böyük əhəmiyyətli, canlı bir məktəbdir. Dramaturq siyasi, ümumi fəlsəfi, əxlaqi problemləri əks etdirərək tamaşaçıları güldürür. Molyer teatrının hərtərəfliyi onun yenı ölçüdə yazılması ilə bağlıdır. O nə yazırdısa, öz zəmanəsi ilə əlaqələndirirdi. Molyerin praktik teatr mənbəyi fundamental olaraq yeni tiplər idi. Onun əsərləri öz ritmi və kompozisiyası ilə oxucunu cəlb edir.

Molyerin əsərləri böyük islahedici gücə malikdir. Bu əsərlər nöqsanlı, əxlaqsız insanları ələ salmaqla onlara ağır zərbə vurur. Molyerə görə komediya qarşısında iki vəzifə durur: nəsihət vermək və əyləndirmək. Əgər komediya ibrətamiz elementlərdən məhrum edilsə, o mənasız masqaraya çevriləcək, əgər ondan əyləndirici funksiyanı alsaq, komediya əxlaqi bir əsərə yerini vermiş olacaq. Dramaturq öz satirasının ictimai əhəmiyyətini çox gözəl başa düşürdü: dövrünün nöqsanlarını təsvir edərək ifşa etmək. Real zarafatlarında, səhnə həqiqətlərində Molyerin cazibəsi bütünlüklə aydındır, amma zaman, zövq, əsr anlayışı ona Şekspir zirvəsinə qalxmaq üçün öz istedadını göstərməyə imkan vermirdi. Molyerin fikrincə, teatr – cəmiyyətin güzgüsüdür. Molyerin komediyalarında hər şeydən əvvəl klassik teatrın bütün xarakterik xüsusiyyətləri vardır. Molyerin “Adam sevməyən” və “Don Juan” komediyalarında biz Alsest və Filintin, yaxud Don Juan və onun nökəri Sqanarelin mübahisələrini eşidirik. Bu diskussiya ilə də onlar səhnə fəaliyyətində birləşirlər. Pyesin başlanğıcında adətən əxlaqi, ictimai, yaxud fəlsəfi problem durur. Burada isə ayrılmış, sərhəd qoyulmuş güc göstərilir. İki nöqteyi-nəzər, iki izahat, iki fikir ətrafında mübarizə əmələ gəlir, pyesin sonunda müəllifin öz fikri həlledicidir.

Klassik teatrın ikinci zəruri xüsusiyyəti faciə kimi komediyada da müəllifin ideyasını təmsil edən əsas xarakterlər ətrafında hadisələrin son dərəcə konsentrasiyasıdır. (riyakarlıq – “Tartüf”, xəsislik – “Xəsis” və s.) Süjet xətti boyu dramatik konflikt, kolliziya və hətta səhnə personajları özləri verilmiş mövzunu ifadə və izah edirlər.”Tartüfün” adı dünyanın bütün təhsilli insanlarına məlumdu. Molyer Tartüf obrazını yaratmaqla öz qəhrəmanında riyakarlığın bütün mənfi xüsusiyyətlərini cəmləşdirdi, onları geniş planda ifadə etdi və tamaşaçının yaddaşına həmişəlik həkk etdi. Molyerin dövründə Parisdə “dini istedadların” cəmiyyəti adlı riyakar və yalançı möminlərin dəstəsi fəaliyyət göstərirdi. Bu cəmiyyətin üzvlərindən biri də mülki inzibati sahədə kraldan sonra ikinci şəxs Paris parlamentinin prezidenti Lamuanon idi. Cəmiyyət öz üzvlərini azadfikirli insanlara gizlin nəzarət və casusluq üçün evlərə yönəldirdi. Casus fanatiklər ölümə məhkum olunmuşların qılığına girərək məhkəmə üçün hazırlanmış

materialları öyrənirdilər. Təşkilatın fəaliyyəti o dərəcədə mənfur idi ki, hətta XIV Lyudovik də onların qeyri-qanuni iclaslarını, qardaşlıq və cəmiyyət birliklərini qadağan etməyi əmr etdi. Amma gizli qardaşlıq fəaliyyəti qurtarmadı, daha da geniş təşkilatlar yaratmağa başladı. Fanatiklərin bu təşkilatının əlehinə çıxan böyük dramaturq 1664-cü ildə "Tartüf" əsəri ilə onlara zərbə vurdu. Molyerin komediyası katolik kilsəsinə qarşı yönəldilmişdir. Dramaturq kilsə senzurasının fikrini yayındırmaq üçün bir neçə dəfə komediyanı dəyişdi. O, əsaslı sürətdə riyakarlığı səhnədə ifadə etməyin bütün detallarını fikirləşmişdi. Tartüf səhnədə o dəqiqə görsənmir.Tamaşanın ilk pərdəsini seyr etdiyi müddətdə tamaşaçı yaramaza tamaşa etməyə hazırlaşır və gərgin bir halda bu anı gözləyir. Səhnədə Tartüf haqqında söhbət gedəndə tamaşaçılar arasında onun haqqında mübahisə gedirdi: biri onu lənətləyir, digəri isə tərifləyirdi.

Pyes qoca Pernelin səhnədə görünməsi ilə başlayır. Bütün iştirakçılar səhnədə onunla mübahisə edir. Qoca heç kəsi eşitmək istəmir və ancaq bir şeyi təkrarlayır ki,Tartüf təmiz qəlbli insandır. Pyesin ən ağıllı, müdrik personajı sadə qəlbli qulluqçu Dorina Tartüfün qeyri-normal mahiyyətli moizələrini ifşa etməyə çalışır. Tartüf Orqondan istifadə edərək evdə hər şeyi özünə tabe edir. O, Orqonun qızı ilə evlənməklə onun bütün var – dövlətinə sahib olmaq istəyir. Orqon Tartüfə ürəkdən o qədər bağlanır ki, sanki onun gözləri kor olur, onun heç bir pis rəftarını, əxlaqsızlığını görmür. Düşünmək olar ki, belə vəziyyəti təsvir etdikdə, Molyer ifrat dərəcədə hadisələri şişirdir. Lakin bu belə deyil. Molyer həyatı olduğu kimi təsvir edir və tipik xarakterləri həyatdan götürürdü. Humanist ideallar uğrunda mübarizə həyata və gerçəkliyə gözüaçik münasibət tələb edirdi, Molyer də incəsənətin məhz bu tarixi missiyasını yerinə yetirdi. Molyerin komediyalarında həyati tiplər özlərinin dərin təcəssümünü xarakterin mürəkkəb çoxcəhətliliyində deyil, onların əsas və dominant cəhətlərində tapırdı. Bu səbəbdən onlar birbaşa axarlı məişət kontekstində deyil, tipik keyfiyyətlərin məntiqlə seçilməsindən sonra verilirdi. Məhz belə bir seçmə əməliyyatının nəticəsində Tartüf, Don Juan, Qarpaqon və sair belə əlahiddə tiplər yaradırdı.

İkinci yarımfəsilin sonunda Molyerin "Don Juan", "Xəsis", "Skapenin kələkləri" və s. komediyaları geniş təhlil olunur. Molyerin yaradıcılığı yalnız Fransa ədəbiyyatının deyil, dünya ədəbiyyatının inkişafına təsir etdi. Onun yaradıcılığının üstünlüklərini hətta klassisizmin əlehinə olan V.Huqo qəbul etdi. Bayron və Merime, Balzak, Puşkin, Qoqol, Dostoyevski kimi dahilər Molyer obrazlarından qidalanaraq, yeni surətlər

yaratdılar. Molyer romana deyil, təsvir olunan aləmdə insan və onun xarakterinin açılmasında böyük rol oynayan dramaturgiyaya üstünlük verdi. Molyerin təsvir etdiyi personajlar təkrarolunmazdırlar, fərqlidirlər.

Dissertasiyanın II fəsli "J.-B.Molyer və M.F.Axundov yaradıcılığında fərdi üslub problemi" adlanır və iki yarımfəsildən ibarətdir. Birinci yarımfəsli M.F. Axundov və J.-B.Molyer: fərdi üslub baxımından klassisizm və realizm metodlarının müqaisəli təhlili adlanır. Burada biz iki mədəniyyətin görkəmli təmsilçisi olan – J.-B.Molyer və onun simasında Avropa mədəniyyəti, fransız klassisizmi və Azərbaycan maarifçi realizminin banisi – M.F.Axundov yaradıcılığının müqayisəli təhlilini aparmaq iqtidarındayıq. Bu nöqteyi-nəzərdən A.Veselovski, V.Jirmunski kimi alimlərin dünya ədəbiyyatının birləşdirici konsepsiyasına arxalanmışıq. Son onilliklər ərzində ədəbiyyatşünaslıq elmində baş vermiş təsirli irəliləyiş ondan xəbər verir ki, mədəniyyətlər arası əlaqələr fenomeni tam yeni müstəviyə keçir. Bu mənada klassik yazıçıların sonrakı dövrlərdə "dialoqun mümkünlüyü" və klassik məktəbin başqa ədəbi cərəyanlarla mövcudluq imkanı tezisi ortaya çıxır. J.-B.Molyer və M.F.Axundov yaradıcılığına müraciəti resepsiya kimi təqdim etmək mümkündür. Resepsiyanın dialoq kimi təyin edilməsi görkəmli komparativistlərin əsərlərində verilmişdir. Dialoqun "təsir – qavrama" təyin edilməsi ən azı iki " səsin" mövcudluğu ilə bağlıdır. Süjetin resepsiyası heç bir zaman təsadüfi olmur. Müəllif özgə elementdən yalnız onun "Öz mühit"i, şəraiti ilə həmahəng olanı "qavrayır". Mənimsənilmiş elementi müəllif "canlandırma" və "yeniləmə" konstruktiv prinsiplərinin quraşdırılması ilə həyata keçirir. Yenilənmə prosesi müəllifi maksimal dərəcədə "özgə" elementlə yaxınlaşdırır, "özgə" mədəni məkana girməyə ixtiyar verərək onun "köhnə materialdan yeni yaradıcılıq" əldə etməyi üçün zəmin yaradır. Yenidən yaratma qavrayan şüurun imkanlarını məhdudlaşdırır və bununla "özü"ilə "özgə" arasında distansiya yaradır. Resepsiya prosesində "öz" dialoqunun "özgə" mədəni irs elementlərilə təmasını qəbul edən və eyni zamanda rədd edən müəllifdə özünəməxsus bədii yaradıcılıq üslubu əmələ gəlir və bu da gələcəkdə yeni süjet, obraz, ideyaların inkişafına impuls verir. XX əsrin ortalarında dialoq ideyasına "reseptiv estetikasının" görkəmli nümayəndələri Q.Yauss, V.Izer və b. müraciət etmişlər. A.Veselovski ənənəvi süjetlərə olan marağı bir tərəfdən psixoloji proseslərin ümumiliyi ilə, digər tərəfdən – tarixi təsirlərlə izah edir. V.Jirmunski onun əsas müddəalarına qoşularaq eynilə ənənəvi süjetlərin alınmasını qavrayan dövrün sosial-tarixi və mənəvi kontekstilə

əlaqələndirir. "Məhz ənənəvi süjetlər öz formal – məzmunu əlamətləri ilə nisbətən sabit və eyni zamanda dinamik sistemlərdir. Onların süjet və məna xarakteristikaları yeni bədii şərhdə özlərinin əvvəlki taniş xüsusiyyətlərini saxlayaraq, eyni zamanda səmərəli şəkildə qavrayan kontiniumun bütün reallıqlarını və problemlərini özünə hopdurur".[7] "Ənənəvi süjetlər – həm sinxron, həm də diaxron xarakterli tədqiqatlar üçün zəngin materialdır".[8]

Eyni süjetin bir neçə versiyasının diaxron müqayisəsi beynəlxalq ədəbi prosesin müntəzəmliyini əks etdirir və müxtəlif dövrlərdə süjetin rolu və əhəmiyyətini aşkar etməyə kömək edir.

Məlumdur ki, ənənəvi strukturlar mədəniyyətin inkişafı boyu öz aktivliyini saxlayır və bu XVIII əsrə qədər daima mövcud olaraq, XX əsrdə yenə də aktuallaşıb. Ədəbiyyatı geniş və əhatəli edən onun axarlığıdır. Heç bir ədəbi cərəyan, yaxud janr hansısa məhdud, dar zaman-məkan çərçivəsində qapana bilməz. Hətta nisbətən məhdud tarixi zaman kəsiyində və ədəbi prosesdə yeni, ilk baxışdan davamlı tendensiyalar yarananda belə, biz həmin prosesin dinamikliyini və qapalı olmadığının şahidi oluruq.

Məlum olduğu kimi J.-B.Molyer klassik mədəniyyətin rəmzi və aparıcı fiqurudur. M.F.Axundov isə Azərbaycan maarifçiliyinin ən parlaq nümayəndəsidir. Lakin hər bir nəhəng sənətkarda olduğu kimi, onların heç biri öz dövrünün dar çərçivəsinə sığışmır. Yuxarıda qed etdiyimiz kimi hər bir mədəniyyətin dialoq üstündə qurulduğu vacib faktordur. "...mülahizə nə qədər monoloji olsa da...o, təqdim olunan predmet haqda nə vaxtsa deyilənlərə müəyyən dərəcədə cavab ola bilməz...Mülahizə üslubunu axıra qədər dialoji çalarları nəzərə almadan dərk etmək olmaz".[9]

M.Baxtin bu fikri ilə dialoqluğun əhəmiyyətini və geniş əhatəliyini hansısa əsərin strukturuna münasibətdə, hər bir əsərin gerçəkliyi ilə, milli və dünya ədəbiyyatına münasibətdə dialoq olması ilə və belə əlaqələrsiz yazıçı üslubunun izahının mümkünsüz olmasını izah edir.

Bu mövqedən biz M.F.Axundov və J.-B.Molyer yaradıcılığını təhlil edərək, həmin yazıçıların metod və üslublarının dialoqluğunu aşkar edirik. Məlum olduğu kimi klassisizmə məxsus olan Molyer poetikası bu metodla məhdudlaşmayıb, bir çox hallarda çərçivədən kənara çıxır. Beləliklə J.-

---

7 Нямцу А.Е. Основы теории традиционных сюжетов. Черновцы: Рута, 2003, с. 31-32.

8 Жирмунский В. М. Фольклор Запада и Востока. М.: 2004, с. 353.

9 Бахтин М.М.Эстетика словесного творчества. М.: Искусство, 1979, с. 272.

B.Molyer və M.F.Axundov yaradıcılığının müqaisəli təhlili burada həm birləşdirici nöqtələr, həm də onları ayıran məqamları ortaya çıxararaq, tədqiqatçıya onların hər birinin bədii üslub özünəməxsusluğunun dərinliyinə varmaq imkanı yaradır. Molyer komediyası o mənada dialoqludur ki, o, daxilində Rable və Montenin İntibah ənənələri, eyni zamanda XVII əsrin rasionallığı ilə öz yaradıcılıq metodunu zənginləşdirir və beləliklə fransız və dünya teatr sənətinə geniş yol açır. Klassisizm poetikasının qanunlarına riayət etməklə yanaşı Molyer bu cərəyan daxilində mümkün olan bütün realist imkanlardan istifadə edir. Əsərlərində klassisizmin "axarlığını" nümayiş etdirərək o, bu cərəyanın prinsiplərini realistcəsinə dərinləşdirir. Molyerin dünyagörüşü maarifçi baxışlara keçid kimi dəyərləndirilir.

Molyer realizmi maarifçi realizimdən daha əhatəli olaraq romantizmdən sonrakı realizmə, onun sosial-tənqidi xarakterinə daha meyillidir.O, durğun feodal kateqoriyaları ilə deyil, sosial-siyasi kateqoriyalarla düşünürdü və bu halda onun yaratdığı obrazlar ümumi insan obrazları deyil, sosial-fərqli obrazlardır. Molyerin düşmənləri onu müəyyən insanları təsvir etməkdə qınayırdılar, əslində isə dahi komedioqraf ümumiləşdirilmiş insan tiplərini yaratmağa can atırdı.

Azərbaycan tənqidində M.F.Axundov və J.-B.Molyer ararasında paralel müqayisə aparmaq ənənəsi var. Bu müqayisədə bizi yazıçıların fərdi üslub problemi maraqlandırır. Belə olan halda isə onlarin ideoloji baxışları və prioritetləri xüsusi əhəmiyyətə malikdir. Axundov maarifçiliyi təmsil edərək, eyni zamanda öz dünyagörüşünü Qərb idealları üzərində qururdu. Bu isə böyük mütəfəkkirin insanların əl-qolunu bağlayan "Şərq" mentalitetindən xilas etmək arzusu ilə bağlı idi. Şəxsiyyətlə cəmiyyətin, dövlətin qarşıdurması hələ faciəvi olmadığı üçün Axundov öz yaradıcılığında komediya janrına müraciət edir. Maarifçilik realizmi də öz xüsusiyyətləri ilə faciəvilikdən çox uzaq idi. Molyer klassisizmə mənsub olaraq, onun elə dövrünə təsadüf etmişdi ki, artıq monarxiyanın şəxsiyyət üçün hər şeydən üstün olması, teatral faciəvilik pafosu tarixi səhnədən geri çəkilmişdi. Molyer əsərlərində maarifçi realizmə deyil, sosial-tənqidi realizmə yönəlmişdi. Məhz bu Molyer komediyalarının özəyini təşkil edirdi. Beləliklə, hər iki sənətkar öz komediyalarını yaradarkan bir nöqtədə "rastlaşır" – onların hər biri komediya janrına tarixin keçid dövründə müraciət edir. Komediya janrının özünü bir mətn kimi götürsək,onun daxili quruluşunda gerçəkliklə bilavasitə bağlanan məqamlarla ümumi-fəlsəfi, yaxud janr estetikası fərqli modullarda əyanıləşir. Molyerlə Axundov,

yaxud hər hansı başqa bir komediya ustası yazıb-yaratdığı əsrdən asılı olmayaraq komediyanın "janr sferalarında" qarşılaşırlar, yaxud fərqlənirlər. Eyni ədəbi cərəyanlara aid olan dramaturqlar arasında da fərqli cəhətlər mövcuddur. Bu mənada ən perspektivli müqayisə fərdi üslubların müqaisəli təhlilidir. J.-B.Molyer və M.F.Axundov öz dünyagörüşlərinə görə fərqlənirlər. Bədii yaradıcılıq fərdi xarakter daşıyır. Başqa sözlə, hər bir yazıçı əsərə fərdi üslubun əlamətlərindən biri olan yeni çalar, yeni nüanslar əlavə edir. Bu nöqteyi-nəzərdən Molyerin "Xəsis" və Axundovun "Sərgüzəşti-mərdi xəsis" və ya "Hacı Qara" əsərlərinin müqaisəsi məqsədəuyğundur. Axundovun yaratdığı Hacı Qara obrazı Molyerin Qarpaqon obrazından əsas fərqi ondadır ki, Axundov öz qəhrəmanını müxtəlif çür danışdırır. Yazıçı Hacı Qaranın xarakterinin səciyyəvi sifətlərini açiqlamaq üçün müxtəlif komik bədii üsullardan – həm tipin öz sözləri, həm də başqa obrazların dili ilə ifşa etmək üsullarından istifadə etmişdir. İstər Molyer, istərsə də Axundov öz əsərlərində eyni xarakterli obrazlar yaratsalar da, onların hər biri bu obrazlara xəsisliyi ifşa edən rəmzi bir tip keyfiyyəti qazandırmışdır. Pula olan istək Qarpaqonu dəli olmaq dərəcəsinə gətirib çıxarır. O, hamını oğru hesab edib şübhələnir, pullarını bağda gizlədir, qorxudan öz evindən çıxmağa belə cəsarət etmir. Qarpaqon öz var-dövlətini artırmaq üçün qızını varlı qoca ilə evləndirmək istəyir. Qarpaqon həm də tərifi sevən, qocalığında yorğalıq edən bir obrazdır. Hacı Qara isə var-dövlətini artırmaq üçün qaçaq mal gətirməyə gedən tacir obrazıdır. Beləliklə hər iki yazıçı eyni xarakterli obrazları ifşa edən rəmzi bir tip yaratmışlar.

Molyerin "Xəsis" komediyası XVII əsrdə fransız cəmiyyətinin burjuaziya sinfini, onların məişət və ailə həyatını göstərən bir əsərdir. Axundov "Hacı Qara" komediyasını yazarkan artıq Molyerin "Xəsis", Puşkinin "Xəsis cəngavər" əsərlərilə tanış idi. Axundovun böyüklüyü, istedadı və orijinallığı ondadır ki,o qəti surətdə təsir altinda qalmamış və Azərbaycan həyatı üçün xarakterik xəsis obrazı yaratmışdır. Bu yarımfəslin yekununda qeyd olunur ki, Molyer ilə Axundovun yaradıcılığında "Hacı Qara" və "Xəsis" komediyaları arasında oxşarlıq olması təsadüfi bir fakt deyil. Ümumiyyətlə komedioqraf istedadı baxımından Molyerin "Mizantrop", "Tartüf" – Axundovun "Molla İbrahim Xəlil kimyagər" və s. əsərlərində bu iki nəhənglərin öz dövrlərinin satirik "bioqrafiyasını" yaratmaq gücü onları bərabər bir səviyyəyə qaldırır.

İkinci fəslin ikinci yarımfəsli M.F.Axundov Azərbaycan ədəbiyyatında fərdi üslubun banisi kimi. XIX əsrdə Azərbaycan

ədəbiyyatının tam yeni istiqamətdə inkişafı, yeni ideya-bədii keyfiyyətlər kəsb etməsi və ümumən yeni ədəbi paradiqmanın yaranması bilavasitə böyük yazıçı və mütəfəkkir M.F.Axundovun adı ilə bağlıdır.

M.F.Axundov öz komediyalarını yaratmaqla ədəbiyyatımıza yeni ədəbi forma gətirmiş, nəinki Azərbaycanda, eləcə də Yaxın Şərqdə dramaturgiyanın banisi kimi tanınmışdır. İdeya və məzmun dolğunluğu, surətlərin təbiiliyi, xarakterlərin tipikliyi, yeni dramaturgiya üslubu etibarilə M.F.Axundov tamamilə orijinal bir ədəbi məktəbdir. M.F.Axundov öz komediyaları ilə Azərbaycan realist ədəbiyyatının möhkəm bünövrəsini qoymuşdur. Azərbaycan ədəbiyyatında ədəbi- bədii tənqid də Axundovdan başlayır. Axundov yeni dövr Azərbaycan ədəbiyyatının ən qüdrətli simalarından biri, realizm yaradıcılıq metodunun banisidir. Axundova bir komedioqraf kimi formalaşmasında və fəaliyyət göstərməsində dünya komedioqrafları, başlıca olaraq, Molyer və Qoqol ciddi təsir göstərmişlər. Komediyaları meydana gəldiyi ilk gündən Axundovun simasında Azərbaycan ədəbiyyatına olduqca orijinal, istedadlı bir sənətkar, “Azərbaycan Molyeri” gəldi. Bu barədə deyilən bir çox şərhlərə baxmayaraq, biz bütün məsuliyyətlə deyə bilərik ki, Axundov nə “Molyer” deyil, nə hansısa ikinci dərəcəli yamsılama mənasında Şərqə Qərb mədəniyyətinin ötürücüsü rolunda çıxış etmir. Bu qudrətli sənətkar bir reformator kimi çıxış edərək, Azərbaycan ədəbiyyatının gələcək inkişafı üçün möhtəşəm perspektivlər yaratdı.

Axundov bir ədib və xadim kimi son dərəcə əlahiddə bir fiqurdur. Məmməd Arifin fikrincə, “Azərbaycan realist teatrının banisi olan M.F.Axundov Molyerlə başlasa da, Şekspirin realizminə əsaslanmışdır. Məktublarında və məqalələrində onun bu böyük realist ingilis dramaturquna yüksək qiymət verməsi əbəs deyildir”.[10]

Molyerlə Axundovun komediya haqqında fikirləri üst-üstə düşür. Molyer komediyanın mahiyyətindən bəhs edərkən yazmışdır ki, komediyanın vəzifəsi insan eyiblərini ifşa etməkdir. Axundov da komediyanın məqsəd və vəzifəsini, böyık ictimai-tərbiyəvi əhəmiyyətini məhz bu şəkildə müəyyənləşdirərək, komediyanın əsas məqsədini insanların eyiblərini ifşa etməkdə, oxucu və qulaq asanları ibrətləndirməkdə görürdü. Molyerin və Axundovun ədəbi fikirlərində oxşarlıq olduğu kimi, onların yazdıqları əsərlərdə personajlarda da oxşarlıq var. Axundov

[10] Məmməd Arif. Seçilmiş əsərləri, III cilddə, III c. Bakı: Elm, 1970, s. 16.

insanların mənfi xarakterlərini tənqid və ifşa etməsi, yumoru, hazırcavablığı, bəzi satirik xüsusiyyətləri ilə Molyeri xatırladır.

Molyerin komediyalarında öz zamanının poetik qanunlarına uyğun olaraq bəzi xüsusiyyətlər vardır ki, onlar klassisizmin qaydalarından, rasionalizmdən xilas olmamışdır. Molyer əsas etibarilə klassisizmin dramaturji qayda-qanunları çərçivəsində hərəkət etdiyi halda, Axundov klassisizmin heç bir qanunu qəbul etmir. Onun komediyalarında zaman və məkan qeyri-məhduddur. Bəzən dramaturq müxtəlif səhnələr verərək, onları çöldən bazara, bazardan evə keçirir, surətləri canlı və hərtərəfli verir.

"Molyerin komediyaları estetik cəhətdən də Axundovun komediyalarından fərqlənir. Molyer klassisizmi tənqid edərək klassisizmin əsaslarına güclü zərbə vurmuşdur. O, klassisizmin bədii prinsiplərini dəstəkləyərək həyatı real təsvir etməyin tərəfdarı idi."[11]

Müəllifin bu fikrində həqiqət var. Molyer klassisizmin nümayəndəsi olsada klassisizm üslubunda yazsada klsassisizmin qayda qanunları ilə razılaşmır, bu qanunlara tam tabe olmurdu. O, realist əsərlər yazmaga daha cok meyl edirdi. Realist əsərlər yazdigi üçün onun əsərlərinin səhnəyə qoyulması illərlə qadağan edilmiş, Molyer həmin əsərlərdə müəyyən qədər dəyişikliklər edərək əsərlərinin səhnəyə qoyulmasina illər sonra nail olmusdur.

"Üç Fransa yazıçısının – Molyerin, Bualonun və Rasinin yaradıcılığı  Axundovu xüsusən maraqlandırırdı. Lakin o, təqlid, təsir altına düşməkdən çox uzaq idi. Axundova görə realist bədii əsərin formasını ən kiçik bədii ifadə vasitələrindən tutmuş janr xüsusiyyətlərinə qədər təyin edən tipik həyati məzmundur".[12]

O, bədii əsərin həyati məzmununa həlledici bir cəhət kimi baxırdı. Ədibə görə ədəbiyyat həyatın, varlığın üzünü köçürməklə məşğul olmamalıdır, burada insan və onun mürəkkəb daxili aləmi,  həyata baxışı, onu əhatə edən mürəkkəb şərait nəzərə alınmalıdır. Müasir ədəbiyyat həyatı doğru təsvir etməklə kifayətlənməməlidir, cəmiyyəti oyatmaq və tərbiyə etmək üçün o həm də ifşaedici məzmuna malik olmalıdır. Axundov realizmin imkanlarını geniş təsəvvür edirdi. Müxtəlif şərti qanunlara qarşı çıxırdı. Realist incəsənətdə, ədəbiyyatda məzmunu əsas, istiqamətləndirici bir cəhət hesab edən yazıçı forma və sənətkarlıq məsələlərinə çox yüksək

---

[11] Тагизаде С. Мирза Фатали Ахундов и Европа. Баку: Азербайджанское государственное издательство, 1991, с. 102.

[12] Orucəli H. Ədəbi qeydlər. Bakı: Azərbaycan Dövlət Nəşriyyatı, 1961, s. 54.

tələbkarlıqla yanaşmışdır. Onun fikrincə, yalnız forma və məzmunu bir-birinə uyğun gələn yüksək bədii yaradıcılıq əsərləri insanları valeh etmək, onların duyğu və düşüncələri üzərində hakim olmaq iqtidarına malikdir. Lakin bu əsərlər realist üslubda olmalı, xalq həyatını tarixi həqiqətlərə uyğun obrazlar vasitəsilə canlandırmalı, insanların gələcəyə doğru inkişafına müsbət təsir göstərməlidir.

M.F.Axundova qədər Azərbaycan ədəbiyyatı əsasən poeziya şəklində inkişaf etmişdi, nəsr və dramaturgiya isə yox dərəcəsində idi. Bədii ədbiyyatı mütərəqqi ictimai fikirləri yaymaqda, xalqın gözünü açmaqda, onun irəli getməsinə kömək göstərməkdə misilsiz bir silah hesab edən M.F.Axundov təbii olaraq nəsr və dramaturgiya kimi kütləvi janrların inkişafına xüsusi əhəmiyyət verirdi.

“Pis və çirkin adətləri insanın təbiətindən tənqid, istehza və məsxərədən başqa heç bir şey qoparıb çıxarmaz.” [13]

Dram və romandan və hər iki janrın xüsusiyyətlərindən danışarkən yazıçı hər şeydən əvvəl onların tənqidi xarakterdə olmasını vacib sayırdı. Axundova görə tənqidsiz, istehzasız sözün kəsəri az olur. Şərq klassikərinin etdikləri moizə və nəsihət xalqın əxlaqının yaxşılaşmasına təsir etmir. Qərb yazıçıları əsərlərində ictimai qüsurları tənqid etdikləri üçün Avropa dövlətləri tərəqqi etmişlər. Buna görə də Axundov Şərq yazıçılarını Qərb yazıçılarının yolu ilə getməyə çağırırdı və o, Azərbaycan ədəbiyyatı tarixində və bütün islam Şərqində ilk dəfə olaraq dramaturgiya və nəsr yaratdı, yeni Azərbaycan ədəbiyyatının yaradıcısı, zəmanəsində qabaqcıl fikirlərin carçısı, böyük realist yazıçı və filosof oldu.

“Nəticə” də dissertasiyanın hər iki fəslində əldə olunan elmi qənaətlərin müxtəsər nəzəri xülasəsi verilir:

- bu iki nəhəng fiqurların yaxınlığı onların yaradıcılığının zahiri oxşarlığına görə deyil, məhz mədəniyyətlərarası dialoq nöqteyi-nəzərindən cəlbedicidir;
- J.-B.Molyer və M.F.Axundov yaradıcılığını axarlılıq xarakterizə edir. Molyer həm klassisizm, həm renessans, həm maarifçilik, həm realizm üslubunda əsərlər yazan yazicidir. Eləcə də Axundov öz dövrünün dar çərçivəsinə sığışmayan, üslubunu genişləndirən, bədii metod axarlığını nümayiş etdirən yazıçıdır;

---

[13] Dadaşzadə M.A. Seçilmiş əsərləri, III cilddə, I c., Bakı: Azərbaycan Elmlər Akademiyası Nəşriyyatı, 1967, s. 288.

- J.-B.Molyer və M.F.Axundovun metod və üslubları dialoqludur. Molyerin komediyalarında Rable, Montenin, eyni zamanda XVII əsrin yaradıcılıq metodu, Axundovda Şərq və Qərb ənənələri birləşib;

- J.-B.Molyer və M.F.Axundovun komediyaları ictimai-tərbiyəvi konsepsiya üzərində qurulmuşlar. Onların əsərləri xalq üçün ibrətli bir məktəbdir;

- Hər iki yazıçının fərdi üslubları onların dilində müəyyənləşir. Molyerin Qarpaqonu yalnız xəsislik üstündə qurulub, Axundov Hacı Qaranı müxtəlif cür danışdırır;

- J.-B.Molyer və M.F.Axundov yaradıcılığı demokratik ideyalar və xəlqilik üstündə qurulub;

- J.-B.Molyerin komediyaları qədim komediya- del artedən qidalanırdı. Axundov da xalq dramının üsullarından istifadə etmişdi;

- M.F.Axundov J.-B.Molyerdən fərqli olaraq komediyalarında məkan məhdudiyyətini aşır, qəhrəmanlarını bir məkandan o birinə keçirir;

- J.-B.Molyer və M.F.Axundov komediyalarının daxili strukturu " janr mərtəbəliliyilə" fərqlənir;

- xarakter etibarilə intellektual səciyyə daşıyan Molyer komediyaları rasionalist estetika prinsipləri əsasında qurulmuşdu. Eynilə M.F.Axundov dramaturgiya quruluşunu, məzmununu, texnikasını yüksək səviyyədə istifadə edən mahir bir sənətkardır.

Dissertasiyanın əsas müddəaları müəllifin aşagıdakı elmi məqalə və tezislərində öz əksini tapmışdır:


1. Klassisizm və realizm: Molyer və Axundov yaradıcılığında fərdi üslubların müqayisəsi // Dil və ədəbiyyat. Bakı: BDU, 2006, № 3 (51), s. 57-59
2. Klassisizmin dramaturgiya konsepsiyası // Dil və ədəbiyyat. Bakı: BDU, 2008, № 1 (61), s. 109-110
3. Klassisizmin ümumi nəzəri problemləri // Elmi xəbərlər. Bakı: ADU, 2008, № 1, s. 281-286
4. Azərbaycan ədəbiyyatında fərdi üslubun inkişafı / AMEA rəyasət heyəti Azərbaycan Gənc alim, aspirant və magistrlər cəmiyyəti,Gənc alimlərin I Respublika innovativ ideya yarmarkası, Bakı: AMEA, 18-23 noyabr 2010-cu il, s. 209-212
5. Mirzə Fətəli Axundov yaradıcılınında avropaçılıq və millilik // Pedaqoji Universitet xəbərləri. Bakı: ADPU, 2011, № 1, s. 190-195

6. Mirzə Fətəli Axundovun nəzəri görüşləri // Elmi xəbərlər. Bakı: ADU, 2011, № 1, s. 263-268
7. Ж.Б.Мольер и драматургия Мирзы Фатали Ахундова // Наука в современном мире / Материалы XIII Международной научно-практической конференции. М.: Спутник+, 2013, s. 148-152
8. Jan-Batist Molyer və Mirzə Fətəli Axundovun əsərlərində oxsar personajlar // Dil və ədəbiyyat. Bakı: BDU, 2013, № 1 (85), s. 158-160
9. Мирза Фатали Ахундов – Азербайджанский Мольер? // Компаративны дослыдження словянських мов и литератур, Памяти академика Леонида Булаховського, Киев: Киевский национальний университет имени Тараса Шевченка. Институт филологии, 2013, випуск 23, s. 181-191.

Саида Бахлул гызы Дадашева

# КЛАССИЦИЗМ И РЕАЛИЗМ: СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ИНДИВИДУАЛЬНОГО СТИЛЯ В ТВОРЧЕСТВЕ Ж.-Б.МОЛЬЕРА И М.Ф.АХУНДОВА

## Резюме

В диссертации исследуются два магистральных направления в истории мировой литературы – классицизм и реализм на примере творчества крупнейших его представителей – Ж.-Б.Мольера и М.Ф.Ахундова в аспекте их индивидуального стиля.Исходя из достаточно расхожего в критической литературе представления об Ахундове-комедиографе как «азербайджанском Мольере» и связанного с этим подтекста о прямом подражании, зависимости азербайджанского писателя от западных образцов, диссертация построена на доказательной концепции,объективно исследующей индивидуальный стиль двух больших художников.

Проблема индивидуального стиля Мольера и Ахундова в диссертации связывается с эпохой, общественно-политической ситуацией, эстетическими принципами, социальными позициями драматургов-представителей двух культур – Запада и Востока. При исследовании творчества Мольера и Ахундова исследователь опирается на принцип межкультурного диалога, рецептивной эстетики, составляющей основу современного литературного дискурса.

Диссертация состоит из введения, двух глав, заключения и списка использованной литературы.

В первой главе – «Мольер и проблема индивидуального стиля во французском классицизме» – дается общая характеристика состояния французской литературы XYII в., классицизма, построенного на нормативной эстетике, его философского, эстетического своеобразия. Особое внимание уделяется драматургическому жанру, в частности, комедиям Мольера, выходящим за рамки нормативности классицизма. Отмечается великая роль Мольера как создателя качественно нового типа театра, интегрирующего в себе классицизм, ренессанс, реализм и т.д.

Вторая глава называется «Проблема индивидуального стиля в творчестве Мольера и Ахундова». Здесь дается сравнительный анализ индивидуального стиля с позиций классицизма и реализма. Рассматривается эволюция традиционных взглядов ведущих компаративистов прошлого от межлитературных связей к диалогу, многоголосию, полифонии. В этой главе проводится сопоставительный анализ ряда комедий Мольера и Ахундова, их литературно-теоретических взглядов, своеобразия индивидуального стиля.

В заключении обобщаются полученные выводы.

Saida Bahlul Dadasheva

# CLASSICISM AND REALISM: COMPARATIVE ANALYSIS OF INDIVIDUAL STYLE IN J.-B.MOLIERE`S AND M.F.AKHUNDOV`S CREATIVITİES


## Summary

Two streamlines of history of world literature are studied in thesis: classicism and realism on the example of creativity of great representatives-J.B.Moliere and M.F.Akhundov from point of view of their individual style`s on the basis of idea about Akhundov in the critical literature, which is significantly different- comedy dramatist as “Moliere of Azerbaijan” and regarded with its implication about direct imitation, dependence of Azerbaijani writer from western examples, thesis is composed on the evident conception, researching individual style of two great painters objectively.

Problem of individual style of Moliere and Akhundov are regarded with epoch, publicly-political situation, aesthetic principles, social positions of dramatists, representatives of two cultures-West and East. Researcher bases on the principle of intercultural dialogue, receptive aesthetic, composing basis of modern literature discourse, during research of creativity of Moliere and Akhundov.

Thesis consists of introduction, two chapters, conclusion and the list of used literature.

The first chapter titled “Moliere and problem of individual style in French classicism” explores general characteristics of condition of French literature XVII, classicism, composed in normative aesthetic, its philosophy, aesthetic peculiarity. Notably, dramaturgical genre is taken into consideration, especially, comedies of Moliere, going beyond normative classicism. Great role of Moliere is stated as creator of qualitative new type of theater, integrating classicism, renaissance, realism and so on.

The second chapter entitled “Problem of individual style in creativity of Moliere and Akhundov” touches upon the comparative analysis of individual style from point of classicism and realism. Evolution of traditional views of past leading comparatists from interliterature relations on dialogue, multiple votes, polyphony. Comparative analysis of several

comedies of Moliere and Akhundov is carried out in this chapter, their literature –theoretical views, peculiarity of individual style.

The conclusion summarires the basic results of the investigation.

Çapa imzalanıb: 20.04.2016
Format: 60x84 1/16. Tiraj: 100.

«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
*e-mail: mutarjim@mail.ru*

МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ
АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

АЗЕРБАЙДЖАНСКИЙ УНИВЕРСИТЕТ ЯЗЫКОВ

На правах рукописи

САИДА БАХЛУЛ гызы ДАДАШЕВА

# КЛАССИЦИЗМ И РЕАЛИЗМ: СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ ИНДИВИДУАЛЬНОГО СТИЛЯ В ТВОРЧЕСТВЕ Ж.-Б.МОЛЬЕРА И М.Ф.АХУНДОВА.

5718.01 – Мировая литература (французская литература)
5716.01 – Азербайджанская литература

АВТОРЕФЕРАТ

диссертации на соискание ученой степени
доктора философии по филологии

Баку – 2016